# Azərbaycan – Dünya İqtisadi Forumu: *münasibətlərdə yeni səhifə açılır*

## *Prezident İlham Əliyevin Davosa uğurlu səfəri ölkəmizin regional lider olduğunu nümayiş etdirdi*



***İsveçrədə sayca 50-ci olan Davos Dünya İqtisadi Forumu öz işini başa çatdırdı. Forumda dövlət və hökumət başçıları, beynəlxalq səviyyəli şirkət rəhbərləri, tanınmış mütəxəssislər, aparıcı qeyri-hökumət təşkilatlarının təmsilçiləri və media qurumlarının nümayəndələri iştirak edirdilər. Qlobal və regional səviyyədə dünyanın başlıca siyasi, sosial və iqtisadi problemlərinin müzakirəsinin aparılması üçün strateji platformada iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev də İsveçrədə işgüzar səfərdə oldu. Dövlət başçımızın forumda növbəti dəfə fəal iştirakı, orada səsləndirdiyi fikirlər və çoxsaylı görüşləri geniş maraq doğurmaqla yanaşı, Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə təqdimatı baxımından çox faydalı oldu.***

Davos Dünya İqtisadi Forumunun strateji platforma hesab olunmasının əsas səbəbi iqtisadi və siyasi sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq və regional səviyyəli təşkilatların rəhbərləri ilə interaktiv dialoqların və qeyri-rəsmi danışıqlar üçün əlverişli mühitin təşkil edilməsidir. Forumda çoxsaylı mövzular üzrə sessiyalar keçirilir və bu sessiyalar müxtəlif transmilli media qurumları tərəfindən birbaşa yayımlanır. Bundan başqa, forum çərçivəsində nüfuzlu şirkət rəhbərləri ilə görüşlərin keçirilməsi və müxtəlif ölkələrin hökumət nümayəndələri ilə ikitərəfli danışıqların aparılması üçün əlverişli imkanlar yaradılır. Belə bir qlobal arena rolunu oynayan və 1971-ci ildən ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu bu baxımdan mühüm əhəmiyyətə malikdir. Forumlar üçün seçilən mövzular aktuallığı ilə diqqət çəkir. Məruzələrdə dünyanın 100-dən çox dövləti iki əsas göstərici əsasında –potensial inkişaf və rəqabətə davamlılıq indeksi üzrə qiymətləndirilir.

Bununla yanaşı, qlobal geosiyasət, maliyyə sistemində texnoloji və potensial struktur dəyişiklikləri imkanları, kapital bazarlarının inkişafı, elektron ticarət, rəqəmsal iqtisadiyyat, qloballaşmanın strateji nəticələri və digər mühüm məsələlər də müzakirə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Davos İqtisadi Forumunun əhəmiyyəti daha çox forumun iştirakçılarının və orada müzakirə olunan dünyəvi problemlərin dairəsinin tərkibi ilə bağlıdır. Belə ki, forumda dünya iqtisadiyyatının mövcud problemlərinin və onların optimal həlli yollarının müzakirəsi aparılır. Mütəxəssislərin sözlərinə görə, son 30 ildə Davos forumu qlobal problemlərin işıqlandırılması və çağırışların edilməsi baxımından ən uğurlu platforma rolunu oynamaqdadır. ABŞ, Rusiya, Çin, Braziliya, Hindistan və dünyanın digər böyük dövlətlərinin liderlərinin də mütəmadi olaraq iştirak etmələri forumun geosiyasi və geoiqtisadi çəkisini daha da artırır.

Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan da 1995-ci ildən başlayaraq forumda iştirak edir. Ötən 25 il ərzində Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıq əlaqələri uğurla inkişaf etmişdir. Belə güclü əlaqələrin yaranmasında, sözsüz ki, Prezident İlham Əliyevin yürütdüyü genişmiqyaslı siyasət böyük rol oynamışdır. Ötən illərdə olduğu kimi, bu dəfə də ölkə başçısı Davos forumunda Azərbaycan həqiqətlərinin bir daha səsləndirilməsinə nail oldu, bir sıra ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini, eyni zamanda, gələcək əməkdaşlıq münasibətlərinin perspektivlərini müzakirə etdi. Prezident İlham Əliyevin Davos İqtisadi Forumunun rəsmi saytında yerləşdirilən "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsində forum belə qiymətləndirilmişdir: "Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir".

Həqiqətən də dünyanın iqtisadi mənzərəsinin şəkillənmdirilməsində önəmli rol oynayan forumda irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan forum, şübhəsiz ki, bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır. Bu baxımdan Prezident İlham Əliyevin forumun işində yaxından iştirak etməsi Azərbaycan reallıqlarının təbliği baxımından böyük əhəmiyyət daşıyır. Belə ki, səfər çərçivəsində ölkə başçısının xarici dövlət və hökumət başçıları ilə, eyni zamanda, beynəlxalq təşkilat və şirkət rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlərdə Azərbaycanın sosial-iqtisadi inkişafından, həyata keçirilən siyasi və iqtisadi islahatların uğurlarından danışılmışdır.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan – Dünya İqtisadi Forumu: *münasibətlərdə yeni səhifə açılır*

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Avropanın enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirməyi bacarmış bir dövlətdir və dünyada böyük neft-qaz ölkəsi kimi qəbul olunur. Son illər ərzində həyata keçirilmiş strateji enerji layihələri belə deməyə əsas verir. Prezident İlham Əliyev "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsində ölkəmizin enerji layihələrini uğurla həyata keçirməyə davam etdiyini vurğulamaqla yanaşı, Qərbə qaz təchizatının şaxələndirilməsi istiqamətində Avropanın səylərinə dəstək verən Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına nail olduğunu da xatırlatmışdır. Məlumdur ki, bu layihə Xəzər regionundan qaz təchizatını Avropa bazarlarına çatdıracaq və "Köhnə dünya"ya qaz təchizatının şaxələndirilməsinə öz töhfəsini verəcək. Ümumi kapital qoyuluşu 40 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizi layihəsinə daxil olan "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələri müxtəlif maraqlı tərəfləri – o cümlədən 7 dövləti və 11 şirkəti özündə birləşdirir. Bütün bu layihələrin reallaşdırılması, əlbəttə ki, Avrasiyanın müxtəlif ölkələri arasında regional əməkdaşlığa, geniş işbirliyinə yol açır və Azərbaycanın tərəfdaşları ilə enerji təchizatı məsələsində mövqelərini daha da gücləndirir.

strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksək səviyyəli işgüzar görüşlərin nəticəsi kimi qəbul olunmalıdır.

Artıq tərəflər münasibətlərini daha yüksək səviyyəyə çatdırmaq niyyətində olduqlarını təsdiqlədilər. Belə ki, Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşündə ölkəmizin regionda iqtisadiyyat, nəqliyyat, infrastruktur sahələrində oynadığı rolun vacibliyi vurğulanmaqla yanaşı, tərəflər arasında 2019-cu ildə imzalanmış memorandumun davamı kimi, yanvarın 21-də imzalanmış niyyət protokolunun əhəmiyyəti də qeyd edilmişdir. Sənədə əsasən, forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq. Belə bir mərkəzin ölkəmizdə fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq imicinin daha da yüksəlməsi baxımından böyük əhəmiyyət daşıyır. Bunu, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi çoxaspektli islahatların uğurla aparılmasının təsdiqi kimi də qiymətləndirmək olar. Qeyd etmək yerinə düşər ki, Davosda Dünya İqtisadi Forumunun afilə edilmiş mərkəzləri çox az ölkədə mövcuddur və Azərbaycanın seçilmiş ölkələrin sırasına daxil olması, əlbəttə ki, qürurvericidir.

Belə mərkəzlərin əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir. Buna




Azərbaycan Prezidenti forumda keçirdiyi görüşlərdə müxtəlif sferalara, o cümlədən tranzit potensialının reallaşdırılmasına, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən, enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrasına aid məsələləri müzakirə etmişdir. Dövlət başçısı Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur, digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu vurğulamışdır. Görüşlərdə Prezident İlham Əliyev Azərbaycanda inkişafın yeni mərhələsində həyata keçirilən iqtisadi islahatlardan söz açmış, onların əsas məzmunu, mahiyyəti və məqsədləri barədə geniş fikir mübadiləsi aparmışdır. Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo Prezident İlham Əliyevlə görüşündə beş il bundan əvvəl Davos forumunda ölkə başçımızın OPEC-ə üzv olan bütün dövlətlərin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olduğunu, belə bir təşəbbüslə əvvəllər heç kimin çıxış etmədiyini xatırlamış və bu addımı Azərbaycan liderinin uzaqgörənliyi və çox qətiyyətli olması kimi qiymətləndirmişdir. "Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz", – deyən cənab Barkindo 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində 24 ölkənin əməkdaşlıq bəyannaməsini imzaladığını bildirmişdir. OPEC-in baş katibi Prezident İlham Əliyevin baxışı və təklifi sayəsində tarixdə belə bir imzalanma hadisəsinin ilk dəfə baş verdiyini bildirmiş və rəhbərlik etdiyi təşkilatın bu çağırışı heç vaxt unutmayacağını demişdir. Göründüyü kimi, nüfuzlu təşkilatın baş katibi Azərbaycan Prezidentinin dünyanın enerji bazarında karbohidrogen qiymətlərinin tənzimlənməsində oynadığı böyük rolu etiraf etməklə yanaşı, dövlət başçımızın çox yüksək strateji düşünmə qabiliyyətinə malik dövlət xadimi olduğunu da bildirmişdir.

Bu gün Azərbaycan Davos Dünya İqtisadi Forumunun nüfuzlu üzvlərindən birinə çevrilmişdir və ölkəmiz hər il bu forumda təmsil olunur. Azərbaycanın əlverişli coğrafi vəziyyəti, iqtisadi potensialı və digər amillər ölkəmizin geosiyasi çəkisini daha da artırmışdır. Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda reallaşdırılan strateji layihələrin əsas təşəbbüskarı və mərkəzi aktoru kimi fərqlənir. Təsadüfi deyil ki, 2013-cü ilin aprelində Dünya İqtisadi Forumu məhz Bakıda keçirilmişdi və o zaman tanınmış mütəxəssislər bu hadisəni dünya birliyinin Azərbaycanın sürətlə artan iqtisadi potensialına verdiyi qiymət kimi səciyyələndirmişdilər. Diqqət çəkən əsas məqamlardan biri də budur ki, öz tarixi ərzində bu mötəbər tədbir yalnız iki dəfə Davosdan kənarda keçirilmişdir. Azərbaycan üçün çox qürurverici haldır ki, bu nüfuzlu foruma ABŞ-dan başqa yalnız Azərbaycan evsahibliyi etmişdir. 2013-cü ildə Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilmiş forum beynəlxalq təşkilatın Azərbaycanın iqtisadi inkişafında əldə etmiş böyük uğurlara verdiyi yüksək qiymət kimi dəyərləndirilmişdir. Əlbəttə ki, ölkəmizə göstərilən bu yüksək etimad həm də Azərbaycan liderinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və

görə də, niyyət protokolunun imzalanması Azərbaycan – Dünya İqtisadi Forumu əlaqələrində yeni səhifəni üçün yaxşı başlanğıc kimi qiymətləndirən Prezident İlham Əliyev Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasında olmağımızdan fəxr etdiyimizi vurğulamışdır. Ölkə başçımız Azərbaycan – Dünya İqtisadi Forumu münasibətlərində gələcəyin keçmiş qədər uğurlu olacağına ümidvar olduğunu da açıqlamışdır. Cənab Brende götüşdə Azərbaycanın dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacağını bildirmiş və Prezident İlham Əliyevin qarşıya qoyulan hədəfləri yerinə yetirən lider olduğunu da vurğulamışdır. Dünya İqtisadi Forumunun prezidentinin belə deməyə tutarlı əsasları var. Belə ki, 2019-cu ildə Azərbaycan iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artmış, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq, 4,9 faizə çatmışdır. Bu dövrdə Azərbaycan iki dəfə "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınmışdır.

Nüfuzlu beynəlxalq mütəxəssislər də Dünya İqtisadi Forumunun Azərbaycan afilə edilmiş mərkəzinin açılmasını yüksək qiymətləndirirlər. ABŞ politoloqu Qreyq Vaynerin sözlərinə görə, Azərbaycan regionun ən sabit və siyasi baxımdan proqnozlaşdırıla bilən dövlətlərindən biridir və Azərbaycanda Dünya İqtisadi Forumunun Regional Mərkəzinin açılması ölkənin liderliyini möhkəmləndirəcək. Cənab Vayner düşünür ki, belə mərkəzin fəaliyyətə başlaması Azərbaycana investisiyaların cəlb edilməsi prosesinə əlavə təkan verəcək. Bu cür sənədlərin imzalanması Azərbaycana olan etimadın yüksək səviyyəsini nümayiş etdirir və şübhəsiz ki, beynəlxalq investorların Azərbaycana qarşı daha xeyirxah münasibət bəsləməsinə və böyük etimad hissi ilə ölkəyə pul qoymasına kömək edəcək. Amerikalı mütəxəssis bunu Azərbaycan üçün beynəlxalq iqtisadi sistemə inteqrasiya sahəsində çox böyük irəliləyiş kimi də dəyərləndirmişdir. Bundan başqa, amerikalı ekspertin fikrincə, Azərbaycan regionda lider olaraq digər ölkələrin inkişafına yardım etmək üçün məsuliyyəti öz üzərinə götürə bilər. Qreq Vayner, həmçinin hesab edir ki, Azərbaycanda belə mərkəzin açılması qeyri-neft sektorunun inkişafına da ciddi təkan verəcək.

Bir sözlə, Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirakı və forum çərçivəsində keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlər sayəsində beynəlxalq ictimaiyyət bir daha şahidi oldu ki, Azərbaycan möhkəmb olduğu qədər də ən narahat regiona yaxın coğrafiyada yerləşməsinə və hələ də davam edən Dağlıq Qarabağ münaqişəsinin olmasına baxmayaraq, sürətli templə irəliləyir və həyata keçirilən genişmiqyaslı islahatlar dinamik inkişafı təmin edir. Belə bir inkişaf Azərbaycanı regionun liderinə çevirməklə yanaşı, beynəlxalq ictimaiyyətin dəyərli və məsuliyyətli üzvlərindən biri olması əminliyini daha da gücləndirir.

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**